# İÇƏRİBAZARDA III BAL BAYRAMI

## Mərasimə elliliklə hazırlaşan qaxlılar bayramı coşqu ilə qeyd etdilər

**Əlverişli iqlimə, zəngin floraya malik olan Qaxda kənd təsərrüfatının digər ənənəvi sahələri ilə yanaşı, arıçılığın inkişafı üçün də məqsədyönlü tədbirlər həyata keçirilir.**

Sentyabrın 19-da rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin, respublika Arıçılıq Assosasiyasının dəstəyi ilə üçüncü dəfə keçirilən bal bayramı da məhz respublikada arçılığın geniş təbliğinə xidmət edirdi.

Tədbirdə Kənd Təsərrüfatı nazirinin müavini Zeynəddin Talıbov, Milli Məclisin deputatı Azər Kərimli, Mədəniyyət Nazirliyinin, Meliorasiya və Su Təsərrüfatı ASC-nin və respublikanın digər orqanlarının rəhbər işçiləri, qonşu rayonların İcra hakimiyyətlərinin başçıları, Arıçılıq Assosasiyasının rəhbərliyi və 10 rayonun arıçılıq birliklərin nümayəndələri, Qaxın və qonşu rayonların çoxsaylı arıçıları, rayon sakinləri iştirak edirdilər.



İştirakçılar öncə Ümummilli Liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzdülər, hörmət və ehtiramlarını bildirdilər.

Sonra bayram iştirakçıları rayonda fəaliyyət göstərən "APİ-DELTA" arıçılıq təsərrüfatı ilə tanış oldular. İştirakçılara məlumat verildi ki, Kənd Təsərrüfatı Nazirliyinin və Qax rayon İcra Hakimiyyətinin dəstəyi ilə yaradılmış, respublikada arıçılığın inkişafına xidmət edən bu təsərrüfatda 1300 arı ailəsi bəslənməklə əsasən damazlıq tədbirləri həyata keçirilir, 10 çeşiddə arıçılıq məhsulları istehsal olunur.

Bayram tədbiri Qax şəhərinin qədim yaşayış məhəlləsi olan "İçəribazar" Turizm-Mədəniyyət Mərkəzində davam edir. Burada küçə boyunca ardıcıllıqla sərgilənən bölgəmizin qədim və müasir arıçılıq ənənələrini, arıçılığın bu günki inkişafını nümayiş etdirən yerli sənətkarlar tərəfindən yaradıcılıqla hazırlanmış alətlərdən, əşyalardan, rəsm əsərlərindən, arı pətəklərindən, bal və çoxsaylı arı məhsullarından ibarət eksponatlar iştirakçılar tərəfindən olduqca maraqla qarşılanırdı.

Son illər aparılmış milli köklərə söykənən təmir-bərpa işlərindən sonra tarixi görkəmi özünə qaytarılmış şəhərin qədim yaşayış məhəlləsi olan İçəribazarın girəcəyində, qala qapılarının yanında nümayiş etdirilən ənənəvi nəqliyyat vasitəsi olan at arabasının üzərindəki arı təknələri bu yerlərdə arıçılığın tarixi keçmişindən xəbər verməklə iştirakçıların diqqətini xüsusilə cəlb edirdi.

III Bal bayramının rəsmi açılış mərasimində çıxış edərək qonaqları salamlayan rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev ölkəmizdə Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən quruculuq işlərindən, sosial-iqtisadi sahədə əldə edilən uğurlardan, qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirdən danışdı. Kənd təsərrüfatının ənənəvi sahələrdən olan arıçılıqdan ətraflı söz açaraq qeyd etdi ki, bu gəlirli sahənin inkişafı üçün ölkə rəhbərliyi tərəfindən mühüm tədbirlər həyata keçirilir. Qeyd edib ki, bu gün "Bal bayramı"nın Qaxda keçirilməsi heç də təsadüfi deyil. Bölgədə kənd təsərrüfatının olduqca gəlirli və əlverişli sahəsi olan arıçılığın inkişafı diqqət mərkəzindədir. Son illər arıçılığa maraq artıb, xüsusilə gənclər bu sahəyə daha çox meyl edirlər. Son 3 ildə arı ailələrinin sayı 2 dəfədən çox artaraq 21 min 700-ə çatdırılıb. Ötən il qaxlı arıçılara dövlət büdcəsinin vəsaiti hesabına 217 min manat subsidiya ödənilib. Cari ilin ötən dövründə rayonda 200 tonadək bal istehsal olunub. Məhsul istehsalı da əvvəlki illə müqayisədə 2 dəfəyədək artıb.

Sonda III "Bal bayramı" münasibətilə iştirakçıları təbrik edən RİH başçısı vurğuladı ki, həmişə olduğu kimi indidən sonra da rayon rəhbərliyi arıçılığın inkişafına diqqət və qayğısını daha da artıracaqdır.




Kənd Təsərrüfatı nazirinin müavini Zeynəddin Talıbov bayram iştirakçılarını Kənd Təsəsrrüfatı naziri İnam Kərimovun adından salamlayaraq kənd təsərrüfatının inkişafının dövlətin önəm verdiyi prioritet istiqamətlərdən biri olduğunu bildirdi.

Qeyd etdi ki, kənd təsərrüfatının ərzaq təhlükəsizliyinə mühüm töhfə verən sahələrdən biri də arıçılıqdır. Arıçılıq dünyada yeganə sahədir ki, onun inkişafı digər sahələrin inkişafına mənfi təsir etmir, təbii ehtiyatları azaltmır. Prezident İlham Əliyevin ölkəmizdə arıçılığın inkişafına xüsusi diqqət və qayğısı qısa vaxtda öz təsirini göstərmişdir. Arıçılığın rentabelliyi, əldə edilən gəlirlərin yüksək olması əhalinin bu sahəyə marağını durmadan artırır. Qaxda arıçılığın inkişafı istiqamətində görülən işləri, əldə edilən uğurları yüksək qiymətləndirən hörmətli nazir müavini onlara daha böyük nailiyyətlər arzuladı.

Tədbirdə Azərbaycan Arıçılar Assosasiyasının rəhbəri Bədrəddin Həsrətov son illər dövlətimiz tərəfindən arıçılığın inkişafına çox böyük dəstək göstərildiyini vurğulayaraq dedi ki, son 2 ildə respublikamızda arı ailələrinin sayı 2 dəfəyədək artıb. O, Assosasiyasının hazırda 46 rayon və 4 şəhərdə mərkəzlərinin fəaliyyət göstərdiyini diqqətə çatdıraraq bildirdi ki, qurum yarandıqdan sonra arıçılığın inkişafı üçün bir sıra uğurlu layihələr həyata keçirilib. Burada təşkil olunan təlimlər, seminar və konfranslar arıçılığın inkişafına böyük təsir edib. B.Həsrətov sonda arıçılığın inkişafına göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirdi.

Çıxışlardan sonra tədbir iştirakçıları nümayiş etdirilən bal məhsulları, eksponatlarla tanış olmağa başladılar. Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev, əlaqədar qurumların nümayəndələri, rayonumuzun ayrı-ayrı kəndlərindən, eyni zamanda qonşu rayonlardan gəlmiş arıçılarla görüşərək bayramlarını təbrik edirlər. Eyni zamanda onların nümayiş etdirdikləri arıçılığa aid avadanlıqlarla tanış olur, problemlərini öyrənir, təkliflərini soruşurlar.

İstehsal etdikləri bal məhsulları ilə yanaşı, arı avadanlıqları nümayiş etdirən Qaxbaş kəndindən olan arıçılar- rayon Arıçılar Birliyinin üzvü Kamran Qurbanov, onun həmkəndlisi İsgəndər Əliyev iştirakçılara arıçılıqda işlətdikləri alətlər barədə məlumat verirlər. Rayonda təcrübəli arıçılardan olan Adıgözəl Şamilov minbir dərdin dərmanı olan bal haqqında arıların hələ elmə məlum olmayan sirləri barədə maraqlı məlumatlar verdi, əhvalatlar danışdı. Almalı kəndindən gəlmiş arıçı Həbibullah Qarayevin nümayiş etdirdiyi atasından yadigar saxladığı 30 il əvvəl istehsal olunmuş bal da tədbir iştirakçılarının marağına səbəb oldu. Rayon mədəniyyət mərkəzinin işçiləri hazırladıqları stolda isə baldan hazırlanmış şirniyyat və xörək növləri-paxlava, halva, şəkərbura, tort, maxara, ballı xaşıl, ballı qayğanaq və s. nümayiş etdirilir. Zaqatala rayonundan gəlmiş arıçıların təqdim etdikləri arı məhsulları da iştirakçıların marağına səbəb oldu.

RİH-in başçısı rayonda arıçılığın inkişafına töhfə verən, "Bal bayramı"nın keçirilməsində fərqlənən bir qrup arıçılara fəxri fərman verdi.

Sonda yay teatrında respublikamızın tanınmış incəsənət ustalarının və rayon mədəniyyət mərkəzinin ansamblının üzvlərinin ifa etdikləri mahnılar, rəqslər bayram iştirakçılarına xoş ovqat bəxş etdi.

**Beləliklə, mərasimə elliliklə hazırlaşan qaxlılar "Bal bayramı"nı coşqu ilə qeyd etdilər.**

**Kifayət CABBARLI,**
**Qax şəhəri**



Ədalət 2019.- 26 sentyabr.- S.6.